# «Qəbələ»nin 2:0 hesablı qələbəsi

"Qəbələ" UEFA Avropa Liqasında növbəti oyununu keçirib. Komandamız II təsnifat mərhələsinin cavab oyununda Polşanın "Yagelloniya" klubu ilə qarşılaşıb. Bakıdakı 1:1 hesablı bərabərlikdən sonra qol vurmalı olan "Qəbələ" ilk dəqiqələrdən fəallığı ilə diqqət çəkib. Matçın əvvəlində hər iki komanda meydanın mərkəzi uğrunda mübarizə aparıb, üstünlüyə yiyələnməyə çalışıb. Lakin komandalar qapılar önündə real qol vəziyyəti yarada bilməyib. Daha iddialı görünən "Qəbələ"nin təzyiqi artırması hesabın açılması ilə nəticələnib.

Birinci hissənin sonlarında fəallığı artıran "Yagelloniya" ardıcıl hücumlar təşkil edib. Dmitri Bezotosnı polşalıların fərqlənməsinə imkan verməyib.



İkinci hissəyə Belostok klubu fəal başlayıb. Sürətli əks-hücumlar qurmaq imkanı əldə edən "Qəbələ" də qol vurmağa yaxın olub. "Qəbələ"nin müdafiə xəttini yara bilməyən polşalılar üstünlüyü qola çevirmək üçün uzaq zərbələrə əl atıb. Hücuma aludə olan meydan sahiblərinin arxa xəttindəki boşluqlar isə oyunun sonlarında daha qabarıq hiss olunub. Məhz belə hücum zamanı Cavid Hüseynovun gözəl ötürməsindən sonra Ozobiç qapıçı ilə üz-üzə qalıb. Rəqibini aldadan yarımmüdafiəçi topu qapıya göndərib. Bu qol həmin matçın taleyinə aydınlıq gətirib.

Beləliklə, 2:0 hesablı səfər qələbəsi qazanan "Qəbələ" III təsnifat mərhələsinə yüksəlib.

**"Qəbələ"**

# Ekoloji yay düşərgəsi

***IDEA İctimai Birliyi, Təhsil Nazirliyi və Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun Azərbaycan nümayəndəliyi tərəfindən Azərbaycanda zubrların reintroduksiyası proqramı çərçivəsində "Zubrları təbiətimizə qaytaraq!" adlı növbəti ekoloji yay düşərgəsi keçirilib.***

İyulun 19-da başlanan və üç gün davam edən düşərgədə rayonun Vəndam qəsəbəsindən, Bunud, Tüntül, Yengicə, Nohurqışlaq, Əmirvan, Bılıx, Topbağ və Məlikli kəndlərindən 70-dən çox məktəbli iştirak edib.

Yay düşərgəsinin əsas məqsədi təbiətimizə qaytarılması nəzərdə tutulan zubrlar və onların qorunmasının vacibliyi haqqında gənclərin məlumatlandırılması, onların məktəb yaşlarından ətraf mühit sahəsində maarifləndirilməsi, təbiətə qarşı rəğbət və qayğı hissinin formalaşdırılmasıdır.

Düşərgə iştirakçıları zubrların həyat tərzi, reintroduksiya olunacağı çoxaldılıb təbiətə buraxılması üçün Şahdağ Milli Parkının ərazisində kompleks inşa edilmək-



ərazilər və təbiətdəki rolu haqqında geniş məlumatlar əldə ediblər.

Zubrlar Azərbaycanın zəngin təbiətində əsrlər boyunca məskunlaşıb. Növün axırıncı fərdlərinə keçən əsrin sonlarında Qafqaz dağının ətəyində rast gəlinib. Populyasiya effektiv idarə olunmadığından bu növün Azərbaycanda sayı tükənib.

Hazırda zubrların reintroduksiyası, onların dədir. Bununla bağlı əhalinin, xüsusilə gənclərin maarifləndirilməsi vacib şərtlərdəndir.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə ətraf mühit və biomüxtəliflik mövzusunda düşərgələr ölkəmizdə 2014-cü ildən etibarən hər il təşkil edilir. İndiyədək respublikanın ümumtəhsil məktəblərindən 300-dən çox şagird bu tədbirlərdə iştirak edib.

**"Qəbələ"**

# Beş günlük düşərgə başa çatmışdır

***"Sağlam Düşüncə" Gənclər Təşkilatının Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və Təhsil Nazirliyinin dəstəyi, "Təbiət Dostları" Gənclər Təşkilatının və Azərbaycan Skautlar Assosiasiyasının tərəfdaşlığı ilə keçirdiyi "Sumqayıt məktəblilərinin ekoloji düşərgəsi"nə yekun vurulub.***

Layihə çərçivəsində nəzərdə tutulan beş günlük tədris proqramı Bum qəsəbəsində təbiət qoynunda təşkil edilib. Açıq hava şəraitində təşkil edilən düşərgəyə Sumqayıtda fəaliyyət göstərən 10 orta təhsil müəssisəsindən müsabiqə əsasında seçilmiş 55 məktəbli qatılıb.

Layihənin məqsədi məktəblilər arasında ekoloji maarifləndirmə işinin gücləndirilməsi, ekoloji məsuliyyətin formalaşdırılması və onların potensialından istifadə edərək ətraf mühitin mühafizəsinin diqqət mərkəzində saxlanılmasıdır.

Düşərgə müddətində məktəblilər üçün ekoloji təhsil, komanda quruculuğu, liderlik mövzularında maraqlı təlimlər, seminarlar, intellektual oyunlar keçirilib.

**"Qəbələ"**

# İTMİŞDİR

Qəbələ Bələdiyyəsinin 22 may 2007-ci il tarixli 5 saylı qərarı ilə rayonun Kötüklü kənd sakini **Nəbiyev Hikmət Nəbi oğluna** verilmiş **0,06 hektar torpaq sahəsinin sənədləri** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ şəhər sakini **Yusibov Tacəddin Əhmədiyyə oğluna** şəhərin İ. B. Qutqaşınlı küçəsi 54 b ünvanında RİH başçının 17 sentyabr 1996-cı il tarixli 106 saylı sərəncamı ilə mağaza binasının tikintisi üçün ayrılmış **30 kv.m. torpaq sahəsinin sənədləri** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri üzrə Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Nic qəsəbə sakini **Yusibov Şahin Zabit oğluna** verilmiş 25 oktyabr 2014-cü il tarixli RX seriyalı 0506157 nömrəli (reyestr nömrəsi 406013059574) Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət reyestrindən **çıxarış** və 25 dekabr 2014-cü il tarixli AA seriyalı 006462 nömrəli (reyestr nömrəsi 406013059574) **Torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Tikanlı kənd sakini **Lətifov Namizəd Şəhrəddin oğluna** verilmiş JN seriyalı 111 A nömrəli (kod 40615018) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 fevral 1999-cu il tarixli 4 saylı qərarı ilə Nic qəsəbə sakini **Ataqoy Qalya Muşeqovnaya və ailə üzvlərinə** verilmiş JN seriyalı 399 G seriyalı (kod 40600068) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə (kənd) sakini **Abdurəhmanov Ağaverdi Baba oğluna** verilmiş JN seriylı 870 A nömrəli (kod 40600048) **torpağa mülkiyyət hüququna dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 29 sentyabr 1997-ci il tarixli 19 saylı qərarı ilə Mamaylı kənd sakini **Məmmədyarov Mirzəfər Cəfər oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 083 F nömrəli (kod 40604038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən Vəndam qəsəbə (əvvəlki kənd) sakini **Babayeva Asiya Rəsul qızına** 18 sentyabr 2009-cu il tarixdə verilmiş 406013006979-10301 reyestr nömrəli (inventar nömrəsi 406-46\1744) **daşınmaz əmlakın texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

---

Əvvəllər qanunsuz həyətyanı torpaq sahəsi tutmuş Qəbələ şəhər sakini **Abdullayev Arzu Beydulla oğluna** torpaqdan istifadə hüququnun verilməsi barədə Qəbələ Rayon XDS İcraiyyə Komitəsinin 24 mart 1991-ci il tarixli 6 nömrəli iclas protokolundan **çıxarış** itdiyi üçün etibarsız sayılır.




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2017-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


# ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzetinin kollektivi müxbir postunun rəhbəri **Emin Baratoğluna** yaxın qohumu

**FƏRRUX İBRAHİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Emin Baratoğlu və Rasim Yaqubov, **Əlövsət və Reyhan Aləmmədovlara** əzizləri

**GÜLŞƏN XANIMIN**

vəfatı ilə əlaqədar kədərlərinə şərik olur, dərin hüznlə başsağlığı verirlər.


Redaktor: Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

*Məsul katib Qüdrət Səmədov.*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.